

# Şəhər meri, yetim quşlar və Danışan fitdək

## (hekayə)

*Qəşəm İsabəyli*

**1.**

Səhər Günəşi şəhər ətrafına səpələnmiş birmərtəbəli evlərin pəncərəsinə çəpəki düşəndə, cırradan yeddi qapı açıldı. Saçları üz-gözünə dağılmış yeddi baş uzandı bayıra - o üz-bu üzə çevrilib, birdən də qabağa çıxdı. Bir azdan zürafə dikbaşlığıyla yeriyən çiyni sapandlı Yeddilər təpəni aşıb, ağaclığa girdilər. Bayaq bir dəstə pişik miyovuldayıb, onların üstünə atıldı - hərəsi birini qucağına aldı.

Qovaqlığa təzəcə çatmışdılar - ağac başında nəyisə bölüb-bölüşdürə bilməyən sərçələrin hay-küyü qopdu. Cəld Yeddilər pişikləri yerə atıb, yapışdılar sapanddan. Vıyyadan bir topa daş sancıldı sərçələrin səsinə. Göy pırradan tutulub açıldı - qanadı qırılan, başı dağılan, dimdiyindən qan daman bir yığın quş tappa-tap yerə dəydi.

- Ura! Ura! Ura! - Yeddilər atılıb-düşüb rəqs etməyə başladılar. Bayaq pişiklər irəli sıçradı. Hərə bir sərçəni dişinə alıb, qaçıb girdi kolluğa.

**2.**

Şəhərin Meri qovaqlığa dağılan sərçə tüklərini görəndə əlini dizinə çırpdı:

- Vay, dədəm, vay! Bu qədər yetimi necə saxlayacam?! - Arxaya döndü. -Ay bala...

Bayaq sürücü ağaca dırmaşıb, sərçə yuvasının üstünə əyildi.

- Ölməyiblər, cənab mer, cividəməkdən səsləri batıb. - Ətcəbalaları kepkasına yığıb, ağacdan sürüşüb yerə düşdü.

- Tüklənibləр, ölməzlər, inşallah! Apar zooparka - Quşların Yetimlər Evinə. Özüm piyada gələrəm. - Mer fikrə getdi. - Kimdi bu quşların qənimi?!

- Miyooo! - Bir dəstə pişik böyürdən çıxdı.

- Deməli, sizsiniz?! - Öz sualına özü də güldü. - Amma oxşayırsınız, ha. Şəhərdə siz köklüyündə pişik gözümə dəyməyib, cənablar.  - Mer qol saatına baxdı. Bayaq yerindən tərpənib ağaclığın arasından çıxdı. Evə  qayıdıb, bir stəkan çaydan başqa dilinə heç nə vurmadan gözünü zillədi tavana. Ta axşamacan fikirləşdi. Qapının açıldığını, bağçadan qayıdan nəvəsinin içəri girdiyini də eşitmədi. Birdən nəyisə xatırlamış kimi dik atıldı:

- Tapdım. Tapdım!

Uşaq çaşıb qaldı:

- Nəyi tapdın, ay baba?!

Necə sevinmişdisə bir anlıq eşidib-görmək hissini də itirmişdi:

- Tapdım! Tapdım!

- Ay baba, ay baba?! - Uşaq ətəyindən çəkdi.

Merin fikri özünə qayıtdı:

- Can!

- Nə tapmısan?

- Oh! Deyirəm, bu kimdi?! - Əyilib uşağı qucağına aldı.

- Ay baba...

Mer yenidən özünü-sözünü unutdu - nəvəsini yerə qoyub, güllə kimi bayıra atıldı.

**3.**

Traktorların, buldozerlərin, yük maşınlarının səsi bir-birinə qarışmışdı. Böyük bir zibilliyi quzğun kimi eşirdilər. Gecə yarısına yaxın yerini şumlayıb, əkinə hazır elədilər. Səhər üzü maşın-maşın ağac gətirdilər, gül gətirdilər. On gün çəkmədi Yaşıllıq Parkı hazır oldu.

- Qırmızı lenti cənab Prezidentimiz özü kəsəcəkdi, başı Olimpiya oyunlarına qarışdığından bu şərəfli işi mənə tapşırıb. - Mer açılış lentini kəsdi. - Əminliklə deyirəm, şəhərin quşları evlərin damından, küçələrin səs-küyündən, yolların toz-torpağından və... - mənalı-mənalı ətrafına baxdı, - dəccalların...

-...dəcəllərin?! - Kimsə düzəliş verdi.

- Baxmayın mənim başqa sahənin professoruyam, ədəbi dili kifayət qədər bilirəm. Rəhmətlik dostum Xalq şairi Qabillə söz üstündə o qədər sözümüz olub. "Dəccal" - "bala şeytan" deməkdi. Harda qaldım?

-...dəccalların əlindən...

-... canlarını qurtarıb yığışacaqlar bura. - Çevrilib yaşlı bir kişinin qolundan yapışdı. - Bu cavan oğlanı da...- adamlar gülüşdü,  - Parka gözətçi qoyuram. Ehtiyatlı olun, hətta silah da verəcəm ona. - Əlini qoltuq cibinə salıb, bükülü bir dəsmal çıxartdı - açan kimi, hamı bir-birinə qarışdı:

- Gülləsi hanı?!

- Darıxmayın, bir-iki günə mübarək səsini də eşidəcəksiniz, gülləsini də görəcəksiniz!

**4.**

Quşların yavaş-yavaş tanış yerlərdən çəkilib getdiyini görən Yeddilər soraq-soraq... gəlib çıxdılar Yaşıllıq Parkına. Ağızları açıla qaldı:

- Dostlar, burdan o yana getdi yoxdu - dünyanın quşu var burda.

Qaratoyuqlar iştahla yer eşir, sərçələr civildəşir, qumru quşları nəğmə deyir, qarğalar yanlarını basa-basa gəzir, hərdən budaqlara sıçrayıb, qanadlarını sallayıb otururdular.

Dəcəllər sivişib girdilər ağaclığın gur yerinə - şaqqadan sapandlar çiyinlərdən endi - quşlar nişana oturar-oturmaz Fitdək ildırım kimi çaxdı:

- Fiii... fii... fii... - Tutun onları! Tutun onları!

Qəfil fitdən və hökmlü səsdən Yeddilər necə diksindisə əlləri havada, gözləri quşlarda, ağızları açıla qaldı:

- Ay dədəəə... - tap... tap... tap... - Keçi kimi bir tullanmaq tullandılar, bir qaçmaq qaçdılar, ayaqları göylə getdi.

- Fiii... - Tutun onları! Tutun onları!

Bir azdan Gözətçi bir əlində fitdək, bir çiynində sellofan torba, kefi də kök qayıtdı.

- Ovun qanlı! - Mer də səs-küyü eşidib gəlmişdi.

Gözətçi torbanı ağzı aşağı çevirdi. İçindən yeddi sapand, yedi gün eynəyi, üç cüt ayaqqabı, iki tay corab, iki dənə kepka, bir dənə də qısaqıç şalvar düşdü.

**5.**

Səhəri gün Mer məktəbə girəndə şagirdlərin divardan asılmış karikaturalara baxıb, güldüklərini gördü:

- Cənablar...

Səsə çevrilən məktəblilər Meri tanıdılar.

- Cənab Mer, Yeddilərin yeddisi də altıncı sinifdə oxuyur. Bu, corabı çıxıb qalandı, "Taycorab" qoymuşuq adını. Bu, ayaqqabısını ayağında saxlaya bilməyəndi - "Ayaqyalın" eləmişik. Bu da kepkasını salıb itirən - "Başıaçıq".

- Bəs bu - əynindən qısaqıçı çıxıb qalan? - Mer şəklə doğru əyildi. -"Şalvarıdüşük?!" Əla!

Bu zaman məktəbin direktoru da gəlib çıxdı:

- Xoş gəlmisiniz, cənab mer!

- Sağ olun, sağ olun! Yeddilərin mübarək üzünü görə bilərikmi, cənab direktor?

- Təəssüf ki, "bəli" deyə bilməyəcəyəm.

- Niyə?!

- Başqa məktəbə keçiblər.